**UDC:** 070,49
**LBC:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 e)64
**MJ №** 404
10.33864/2617-751X.2025.v8.i8.242-254

# TOWARDS A NEW WORLD ORDER: REGIONAL AND GLOBAL

**Aytekin Zeynalova***

**Abstract.** On April 9, 2025, the international forum entitled “Towards a New World Order”, jointly organized by the Center for the Analysis of International Relations and ADA University at ADA University, held significant importance in terms of discussing the pressing issues of the contemporary international relations system. Representatives from more than 80 countries, as well as experts from think tanks and leading institutes, participated in the forum and exchanged views on global security, regional stability, energy and transportation projects, as well as interstate cooperation. The programmatic speech delivered by President Ilham Aliyev at the forum stood out with its strategic theses concerning both regional and global politics. He presented a comprehensive position on Azerbaijan’s international initiatives, the new geopolitical realities in the South Caucasus, the normalization of relations with Armenia, the challenges of the post-conflict period, the strengthening of unity in the Turkic world, and Azerbaijan’s contributions to global energy security. The President’s views provided practical directions for both regional integration and prospects of international cooperation. The article analyzes the analytical significance of the forum, Azerbaijan’s mediation initiatives, the principled position demonstrated during its chairmanship of the Non-Aligned Movement, the integration initiatives within the framework of the Organization of Turkic States, as well as the steps taken towards the signing of a peace agreement with Armenia. The analysis of the forum shows that Azerbaijan has become an important actor at both the global and regional levels, consolidating its role as an initiator of political dialogue and security cooperation.

**Keywords:** ADA, International Forum, New World Order, Northern Cyprus, Azerbaijan

---

* Doctor of Philosophy in Political Science,
Baku State University, Associate Professor of the Department of International Journalism and Information Policy; Baku, Azerbaijan
E-mail: phd.aytekinzeynalova@gmail.com
https://orcid.org/0000-0002-9737-1072

**To cite this article:** Zeynalova, A. [2025]. TOWARDS A NEW WORLD ORDER: REGIONAL AND GLOBAL. *“Metafizika” journal, 8*(8), pp.242-254.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.242-254

***Article history:***
*Received: 30.09.2025*
*Accepted: 27.10.2025*
*Published: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

*“Metafizika” Journal*
*Vol 8, issue 8, serial 36, 2025. pp.242-254*

***AcademyGate Publishing***
***p-ISSN 2616-6879; e-ISSN 2617-751X***

**УДК:** 070,49
**ББК:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 e)64
**MJ №** 404
10.33864/2617-751X.2025.v8.i8.242-254

# К НОВОМУ МИРОВОМУ ПОРЯДКУ: РЕГИОНАЛЬНЫЕ И ГЛОБАЛЬНЫЕ ВЫЗОВЫ

**Айтекин Зейналова***

**Абстракт.** 9 апреля 2025 года в АДА Университете Центр анализа международных отношений совместно с Университетом АДА организовал международный форум под названием «К новому мировому порядку», который имел важное значение с точки зрения обсуждения актуальных проблем современной системы международных отношений. В форуме приняли участие представители более чем 80 стран, а также эксперты из аналитических центров и авторитетных институтов, обменявшиеся мнениями по вопросам глобальной безопасности, региональной стабильности, энергетических и транспортных проектов, а также межгосударственного сотрудничества. Программное выступление Президента Ильхама Алиева на форуме выделялось своими стратегическими тезисами, касающимися как региональной, так и мировой политики. Он представил всестороннюю позицию по международным инициативам Азербайджана, новым геополитическим реалиям на Южном Кавказе, нормализации отношений с Арменией, вызовам постконфликтного периода, укреплению единства тюркского мира и вкладу Азербайджана в глобальную энергетическую безопасность. Мнения Президента обозначили практические направления как для региональной интеграции, так и для перспектив международного сотрудничества. В статье проанализировано аналитическое значение форума, посреднические инициативы Азербайджана, принципиальная позиция, проявленная в период председательства в Движении неприсоединения, интеграционные инициативы в рамках Организации тюркских государств, а также шаги, предпринятые на пути к подписанию мирного договора с Арменией. Анализ форума показывает, что Азербайджан стал важным актором как на глобальном, так и на региональном уровнях, укрепив свою роль инициатора политического диалога и сотрудничества в сфере безопасности.

**Ключевые слова:** АДА, Международный форум, Новый мировой порядок, Северный Кипр, Азербайджан

---

* Кандидат политических наук,
Бакинский Государственный Университет Доцент кафедры Международная журналистика и информационная политика; Баку, Азербайджан
E-mail: phd.aytekinzeynalova@gmail.com
https://orcid.org/0000-0002-9737-1072

**Цитировать статью:** Зейналова, А. [2025]. К НОВОМУ МИРОВОМУ ПОРЯДКУ: РЕГИОНАЛЬНЫЕ И ГЛОБАЛЬНЫЕ ВЫЗОВЫ. *Журнал «Metafizika»*, *8*(8), с.242-254.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.242-254

***История статьи:***
*Статья поступила в редакцию: 30.09.2025*
*Отправлена на доработку: 27.10.2025*
*Принята для печати: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 070,49
**KBT:** 63.3(2)6-6
**MJ №** 404
10.33864/2617-751X.2025.v8.i8.242-254

# YENİ DÜNYA NİZAMINA DOĞRU: REGİONAL VƏ QLOBAL ÇAĞRIŞLAR

**Aytəkin Zeynalova***

**Abstrakt.** 2025-ci il aprelin 9-da ADA Universitetində Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin və ADA Universitetinin birgə təşkilatçılığı ilə keçirilən “Yeni dünya nizamına doğru” adlı beynəlxalq forum çağdaş beynəlxalq münasibətlər sisteminin aktual problemlərinin müzakirəsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Forumda 80-dən çox ölkənin nümayəndələri, beyin mərkəzlərinin və nüfuzlu institutların ekspertləri iştirak etmiş, qlobal təhlükəsizlik, regional sabitlik, enerji və nəqliyyat layihələri, eləcə də dövlətlərarası əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır. Prezident İlham Əliyevin forumdakı proqram xarakterli çıxışı isə həm region, həm də dünya siyasətinə dair strateji tezisləri ilə seçilmişdir. O, Azərbaycanın beynəlxalq təşəbbüsləri, Cənubi Qafqazda yaranmış yeni geosiyasi reallıqlar, Ermənistanla münasibətlərin normallaşdırılması, postmünaqişə dövrünün çağırışları, Türk dünyasında birliyin güclənməsi və qlobal enerji təhlükəsizliyinə Azərbaycanın töhfələri barədə əhatəli mövqe ortaya qoymuşdur. Prezidentin fikirləri həm regional inteqrasiya, həm də beynəlxalq əməkdaşlıq perspektivləri üçün praktiki istiqamətlər təqdim etmişdir. Məqalədə forumun analitik əhəmiyyəti təhlil olunmuş, Azərbaycanın vasitəçilik təşəbbüsləri, Qoşulmama Hərəkatına sədrliyi dövründə nümayiş etdirdiyi prinsipial mövqeyi, Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiya təşəbbüsləri, həmçinin Ermənistanla sülh sazişinin imzalanması istiqamətində atılan addımlar araşdırılmışdır. Forumun təhlili göstərir ki, Azərbaycan qlobal və regional səviyyədə mühüm aktora çevrilərək həm siyasi dialoqun, həm də təhlükəsizlik əməkdaşlığının təşəbbüskarı rolunu möhkəmləndirmişdir.

**Açar sözlər:** ADA, Beynəlxalq forum, Yeni dünya nizamı, Şimali Kipr, Azərbaycan

---

* Siyasi elmlər üzrə fəlsəfə doktoru,
Bakı Dövlət Universiteti “Beynəlxalq jurnalistika və informasiya siyasəti” kafedrasının dosenti; Bakı, Azərbaycan
E-mail: phd.aytekinzeynalova@gmail.com
https://orcid.org/0000-0002-9737-1072

**Məqaləyə istinad:** Zeynalova, A. [2025]. YENİ DÜNYA NİZAMINA DOĞRU: REGİONAL VƏ QLOBAL ÇAĞRIŞLAR. *“Metafizika” jurnalı, 8*(8), səh.242-254.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.242-254

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 30.09.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 27.10.2025*
*Çapa qəbul edilmişdir: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Müasir beynəlxalq münasibətlər sistemi qlobal səviyyədə baş verən dərin siyasi, iqtisadi və təhlükəsizlik dəyişiklikləri ilə səciyyələnir. Geosiyasi məkanda güc balansının dəyişməsi, yeni regional ittifaqların yaranması, beynəlxalq təşkilatların fəaliyyətində müşahidə olunan transformasiyalar və münaqişə ocaqlarının artması dünya nizamının yenidən formalaşdırılmasını gündəmə gətirir. Bu proseslər fonunda dövlətlərin qarşılıqlı münasibətlərinin xarakteri, diplomatik alətlərdən istifadə strategiyası və regional əməkdaşlıq mexanizmlərinin səmərəliliyi xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası son illərdə beynəlxalq münasibətlər sistemində təşəbbüskar mövqeyi, qlobal təhlükəsizlik və enerji gündəliyinə verdiyi töhfələri, həmçinin regional inteqrasiya proseslərində oynadığı mühüm rolu ilə fərqlənir. Azərbaycanın siyasi xəttində müstəqillik, balanslaşdırılmış diplomatiya və konstruktiv əməkdaşlıq prinsipləri üstünlük təşkil edir ki, bu da ölkənin beynəlxalq nüfuzunun artmasına şərait yaradır.

ADA Universitetində keçirilmiş "*Yeni dünya nizamına doğru*" adlı beynəlxalq forum bu reallıqların elmi-siyasi müstəvidə müzakirəsi üçün mühüm platforma kimi çıxış etmişdir. Forumda dövlət və hökumət rəsmiləri, beynəlxalq təşkilatların nümayəndələri, beyin mərkəzlərinin ekspertləri iştirak edərək çağdaş dövrün əsas problemləri – regional münaqişələr, əməkdaşlıq imkanları, enerji və nəqliyyat təhlükəsizliyi, eləcə də yeni dünya nizamının konturları ətrafında dərin fikir mübadiləsi aparmışlar. Prezident İlham Əliyevin forumdakı çıxışı isə Azərbaycanın müasir beynəlxalq münasibətlər sisteminə baxışlarını və strateji prioritetlərini aydın şəkildə nümayiş etdirmişdir.

## 2.Əsas mətn

Bu dəfəki formun adı Dünya nizamına doğru adlanırdı. Başqa sözlə, tədbirə toplaşan çoxsaylı ekspertlərini, daha dəqiq desək, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, İspaniya, Almaniya, İsveç, Avstriya, İsrail, Cənubi Afrika, Xorvatiya, Qətər, Türkiyə, Gürcüstan, Pakistan, Belarus, Misir, Şimali Kipr və digər ölkələrin analitiklərini, müxtəlif institutların, beyin mərkəzlərinin nümayəndələrini bir sual birləşdirirdi: Yeni dünya nizamı necə qurulmalıdır və ya yeni dünya nizamının qurulmasına mane olan qlobal problemlər necə həll olunmalıdır? Prezident İlham Əliyevin regionda faktiki yeni nizam, yeni reallıq, yeni münasibətlər sistemi yaradan, bununla da qlobal arenada böyük layları yerindən tərpədən bir liderin üç saata yaxın davam edən müzakirədə ünvanlanan suallara verdiyi konkret, özü də kifayət qədər açıq və net cavabları onu deməyə əsas verir ki, Bakı platforması bu suallara aydınlıq gətirməkdə əhımiyyətli roı oynadı. Dövlət başçısı proqram xarakterli çıxışında müasir dövrün, geosiyasi trendlərin formalaşma meyarlarına bir-bir və dəqiqliklə toxundu. Cənubi Qafqazın lider dövləti Azərbaycanın bu prosesdəki yeri və

roluna konkret fakt və arqumentlərlə aydınlıq gətirdi. Eyni zamanda bu gün yeni dünya nizamının yaranmasına mane olan başlıca problemlərin əsl mahiyyətini, qlobal güclərin əsl niyyətlərini ortaya qoydu.

Prezident İlham Əliyevin ADA Universitetindəki çıxışını mövzu üzrə bir neçə istiqamətə ayırmaq olar.

- Azərbaycanın beynəlxalq təşəbbüsləri;
- Regional vəziyyət və Cənubi Qafqaz proseslərinə baxış;
- Qlobal nəqliyyat və enerji layihələri;
- Beynəlxalq və regional təşkilatlarla əməkdaşlığın perspektivləri;
- Azərbaycanın vasitəçilik təşəbbüsləri və Türk dünyasına dəstəyi.

Bu istiqamətləri bir-bir təhlil edərkən bir mühüm istiqamətdən - Azərbaycanın beynəlxalq fəaliyyəti və qlobal təşəbbüsləri, Azərbaycanın beynəlxalq proseslərdə aktiv iştirakı, rəsmi Bakının Mərkəzi Asiya və Yaxın Şərqdə cərəyan edən proseslərdə fəal rolu göz önünə gəlir. Yəni Azərbaycan faktiki danışıqlar, müzakirələr arealına çevrilib. Qlobal səviyyəli məsələlərin açıq müzakirə olunduğu mühüm platforma rolunu oynayır. Bunu yalnız ölkəmizdə təşkil olunan çoxsaylı regional və qlobal tədbirlərə görə deyil, konkret faktlara əsaslanaraq demək olar. Həmin faktlar sırasında Azərbaycanın İsrail və Türkiyə arasında vasitəçilik missiyası, Suriya ilə qonşuları arasında münasibətlərin tənzimlənməsi prosesində yaxından iştirakı, pandemiya ilə mübarizədə məhz ölkəmizin çağırışları və konkret addımları ilə reallaşan qlobal dəstək və həmrəylik təşəbbüsləri durur. Bu siyahıya eləcə də Qoşulmama Hərəkatına sədrliyimiz dövründə rəsmi Bakının məhz ədalətin, obyektivliyin təmin olunmasında nümayiş etdirdiyi prinsipiallıq və əldə etdiyi konkret nəticələri, yaxud Afrika ölkələri ilə yaxın təmasları da əlavə etmək olar. Heç şübhəsiz ki, həmin əsaslar ilk növbədə Azərbaycanın dünya ölkələri ilə qurduğu ikitərəfli və çoxşaxəli siyasi, iqtisadi münasibətlərə, daha sonra isə ölkəmizin əlverişli coğrafi mövqeyinə söykənir və bütün bunlar da Azərbaycana imkan verir ki, hazırda üç bölgə Avropa, Mərkəzi Asiya və Yaxın Şərqin bir hissəsi kimi çıxış etsin, sözügedən coğrafiyada baş verən proseslərlə bağlı konstruktiv təşəbbüslər irəli sürsün, mühüm platformaya çevrilsin.

Prezident İlham Əliyev: “Hesab edirəm ki, Xəzər dənizinin o tayındakı və Azərbaycanın cənubundakı qonşularımızla, xüsusilə Yaxın Şərq ölkələri ilə çox güclü münasibətlər qurmuşuq. Avropa ölkələri ilə uzunmüddətli əməkdaşlığa gəldikdə, bu ölkələrin bir çoxu ilə Azərbaycan strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalayıb və ya qəbul edib. Beləliklə, artıq qurulmuş bu platforma bizə Mərkəzi Asiya və Avropa regionu arasında coğrafi, siyasi, iqtisadi və nəqliyyat körpüsü olaraq önəmli rol oynamağa imkan verir” [Prezident.az, 2025].

Bu imkan yalnız Azərbaycanın yox, həm də Cənubi Qafqazın strateji çəkisini artırır. Qafqaz bölgəsində davamlı sabitlik, inkişaf, əməkdaşlıq məsələləri daha geniş platformalarda müzakirə müstəvisinə çıxarılır. Hansı ki, bir zamanlar qarşıdurmalardan, aramsız toqquşmalardan, işğaldan və soyqırımlardan başı açılmayan Qafqazı sülh, təhlükəsizlik əməkdaşlıq platformasına, mühüm çağırışların verildiyi məkana çevirir. Prezident İlham Əliyevin yürütdüyü diplomatiyanın, atdığı hər bir addımın ana xətti məhz budur. Bir neçə dəfə ən müxtəlif tribunalardan səslənərək Qafqazdan əl çəkin, imkan verin rahat yaşayaq deyən lider məhz buna çalışır və addım-addım buna da nail olur. Bu missiyanın reallaşması istiqamətində atılan ən mühüm addımlardan biri və birincisi isə heç şübhəsiz ki, Ermənistanla Azərbaycan arasında sülh sazişinin imzalanmasıdır.

Prezident İlham Əliyev: “*Azərbaycan və Ermənistan arasında saziş imzalananda və imzalandığı təqdirdə əlbəttə ki, əməkdaşlığın başlanılmasına heç bir maneə qalmayacaq. Hesab edirəm ki, biz vaxt itirməməliyik, çünki yenə də sülh sazişinə gəldikdə, top Ermənistandadır. Mən bir çox hallarda Ermənistandan ərazi bütövlüyümüz və onların konstitusiyası ilə bağlı gözlədiklərimizi dəfələrlə açıq şəkildə bildirmişəm. Bunlar məlumdur. Beləliklə, bütün bu işlər tamamlanan və sülh sazişi imzalanan kimi Cənubi Qafqazı inteqrasiya olunmuş regiona çevirməyə cəhd etmək üçün heç bir maneə qalmayacaq*” [Hüseynli, 2025].

Bu sitatda Prezident İlham Əliyev mühüm bir cümlə işlədir və tək bir cümlə ilə də Azərbaycanın əsl niyyətini, apardığı mübarizənin mahiyyətini tam şəkildə ortaya qoyur. “Bütün bu işlər tamamlanan və sülh sazişi imzalanan kimi Cənubi Qafqazı inteqrasiya olunmuş regiona çevirməyə cəhd etmək üçün heç bir maneə qalmayacaq”. Prezident yalnız iki ölkənin adını çəkmir, bütövlükdə regionu qeyd edir. Regionu sülh və təhlükəsizlik arealına çevirməyə cəhd etməkdən danışır. Bu gün Azərbaycan regionun öncə üç respublikası, daha sonra isə bütövlükdə regional ölkələr arasında əməkdaşlıq və inteqrativ münasibətlərin qurulmasından yanadı. Yekun məqsəd Qafqaz evi ideyasını reallaşdırmaqdır. Bu ideyanın reallaşması da ilk növbədə iqtisadi nəqliyyat marşrutları, həmçinin enerji təhlükəsizliyi əməkdaşlığından bilavasitə asılıdır. Məsələn, hazırda Azərbaycanla Gürcüstan arasında münasibətlər enerji təhlükəsizliyi, daşımalar, siyasi dialoq, investisiyalar, iqtisadi üstünlüklər kimi seqmentləri əhatə edir. Ancaq Ermənistanın həyata keçirdiyi 30 illik işğal siyasəti və indi də revanş düşüncəsi hay məmləkətini tranzit ölkəyə çevrilmək, eləcə də ikitərəfli siyasi-iqtisadi dividendlərdən yararlanmaq imkanından tamamilə məhrum edir. Odur ki, gələcək prosesləri düzgün proqnozlaşdırmamaq və bütün şansları elə tarixən olduğu kimi, bu gün də Böyük Ermənistan arzusuna qurban vermək, şübhəsiz, həm bu ölkənin

gələcəyini böyük sual altında qoyur, həm də regional sülh və təhlükəsizliyə, əməkdaşlığa imkan vermir [Məmmədov, 2025].

Prezident İlham Əliyev: "*Ermənistan sanki Azərbaycan xalqının 30 illik işğal iztirabı olmamış, 44 günlük müharibə olmamış kimi davranmağa davam etdi və öz dırnaqarası dostlarından pis məsləhətlər aldı. Yeri gəlmişkən, bu proses hələ də davam edir. Baxmayaraq, biz dəfələrlə onlara xəbərdarlıq etmişik ki, onlar istər köhnə, istərsə də yeni dostları hesab etdikləri dairələrə bel bağlamamalıdırlar. Çünki onlar burada bizimlə üz-üzə qalacaqlar. Bizim maraqlarımızı, beynəlxalq arenada olan siyasi maraqlarımızı müdafiə etmək üçün kifayət qədər siyasi iradəmiz var və bizi siyasətimizdən döndərəcək hər hansı bir beynəlxalq təzyiqə məruz qoymaq mümkün deyil*" [Todaypress, 2025].

Bu sitatda isə Pprezident İlham Əliyev prinsipial siyasətdən danışır. Bildirir ki, bizim prinsipial siyasətimizi heç kim geriyə döndərə, qarşısını ala bilməz. Bizim siyasətimizi bu qədər prinsipial edən nədir? İlk növbədə əlbəttə ki, milli mənəvi dəyərlərimiz, milli ideologiyamız, milli düşüncə tərzimiz, milli kimliyimiz, eyni zamanda yaşadığımız-məhz Ermənistanın öz havadarlarının dəstəyi ilə Azərbaycan xalqına yaşatdığı faciələrdir. Biz bir xalq və bir dövlət olaraq 30 il yaşadığımız işğalı, erməni vəhşiliklərini, konkret Xocalı soyqırımını, eləcə ildönümünü qeyd etdiyimiz Ağdaban faciəsini, yaxud Gəncə, Bərdə, Tərtərin yenidən bombalanması, dinc insanların yenidən həlak olması, torpaqlar işğaldan azad edildikdən sonra Qarabağda şahidi olduğumuz vandalizmi, ekoloji terroru, yaxud 4 minə yaxın azərbaycanlının taleyinin hələ də qeyri müəyyən qalması, faktiki hər həftə üzləşdiyimiz mina terroru kimi vəhşilikləri bir də yaşamaq istəmirik. Məhz ona görə də prezident İlham Əliyev dəfələrlə qarşı tərəfə səslənərək tələb edir ki, konstitusiyanızdan ərazi iddiaları maddələrini çıxarmalısınız. Separatizm və ekstremizmi təşviq edən, fərqli cinayətlər törədən kriminal rejim üzvləri Azərbaycan xalqı qarşısında bir-bir cavab verməli və layiq olduqları cəzanı almalıdırlar. Və Prezident İlham Əliyev deyir ki, Bakıdakı mühakimə prosesi ilə bağlı qlobal miqyasda əsassız ittihamlar və Azərbaycana təzyiqlərə çağırış kimi hallar göstərir ki, Ermənistanla dərhal dost olacağımızı təsəvvür edə bilmərik. Prezident İlham Əliyev: "Realist olduğum üçün biz dərhal Ermənistanla dost olacağımızı təsəvvür edə bilmərik. Bu, real deyil və hətta belə bir iqtisadi inteqrasiya haqqında danışmaq hələ tezdir. Lakin biz etimadın artırılması üçün kiçik addımların atılmasına hazırıq. Bu yaxınlarda gürcü dostlarımız tərəfindən atılmış müəyyən təşəbbüslər var idi və biz onlara müsbət cavab verdik. Beləliklə, biz Ermənistan tərəfinin mövqeyini gözləyəcəyik. Bu baş versə, jurnalistlər və ziyalıların mübadilə səfərləri, transsərhəd çaylarla bağlı sessiyalar kimi kiçik addımlar atıla bilər, çünki bu məsələ Azərbaycanı ciddi narahat edir. Çünki Ermənistan Araz çayını çirkləndirir və yeri gəlmişkən,

*“Metafizika” Journal*
*2025, vol 8, issue 8, serial 36, pp.242-254*
Azərbaycan istiqamətində Kür çayı məsələsi müvafiq şəkildə müzakirə olunmalıdır. Beləliklə, bütün bunların praktiki təsiri ola bilər. Bu kiçik addımlarla biz etimadsızlığı azaltmağa çalışa bilərik. Etimadı qurmaq üçün illər tələb olunur, lakin ən azından etimadsızlığı azaltmaq olar, biz buna hazırıq” [United Nations, 2022].

Azərbaycana məxsus dörd anklav kəndin geri qaytarılması və delimitasiya komissiyalarının bu günə qədər əldə etdikləri nəticələri də həmin o kiçik addımlar hesab etmək olar. Lakin məsələ bununla bitmir, proses davam etməlidir. Məsələn, əgər Bakı və Tbilisinin irəli sürdüyü təşəbbüslərə İrəvan da dəstək verərsə, yəni həllini tapmayan məsələlərə isti yanaşarsa, elə Prezidentin də xüsusi olaraq toxunduğu kimi, transsərhəd çaylarının çirkləndirilməsini dayandırarsa və bu problemlə bağlı sessiyaların təşkilinə “hə” deyərsə, sözsüz ki, mövcud etimadsızlıq mühitini bir qədər də azaltmaq olar. Azərbaycan tərəfi qisasçılıq düşüncəsində deyil və heç kimin ərazisində gözümüz yoxdur. Biz Qarabağımızı istəyirdik ki, Qarabağımız da azaddır, Azərbaycana qovuşub. Cənubi Qafqazda düşmənçilik, müharibə səhifəsini birdəfəlik bağlamaq arzusundayıq. Zatən 44 günlük müharibə və bir neçə saat davam edən antiterror əməliyyatları zamanı Ermənistandan fərqli olaraq dinc insanlara qarşı hər hansı əməliyyatın keçirilməməsi, bir mülki vətəndaşın belə zərər görməməsi, əksinə insanların öz xoşu ilə işğaldan azad olunmuş əraziləri boşaltması, tərk etməsi üçün zaman və dəhliz verməyimiz bizim əsl niyyətimizi gün kimi ortaya qoyur. Lakin Ermənistan Azərbaycanın atdığı bax bu addımlara necə qarşılıq verir? Fransanın İrəvana hərbi yardımları fonunda iki ölkə arasında hərbi sənaye əməkdaşlığı çərçivəsində növbəti görüş keçirildi və görüşdə Ermənistanda müdafiə texnologiyasının inkişafı, eləcə də texnologiya proqramlarının mübadiləsi ilə bağlı məsələlər müzakirə olundu. Habelə Hindistan ermənilərə silah tədarük etməklə yanaşı, həm də xüsusi əməliyyatlar üzrə erməni hərbi qüvvələrinin hazırlanması öhdəliyini üzərinə götürdü. Təbii ki, bütün bunlar bizi də hərbi potensialımızı daha da gücləndirmək, durmadan artırmaq məcburiyyətində qoyur. Çünki Ermənistanda militarizasiya siyasəti, separatçılıq dalğası, işğalçı təfəkkürü nəinki azalıb, əksinə artan qarafiklə yüksəlir. Hər keçən gün Ermənistanda qondarma Artsax ideyası, Qarabağdan əl çəkməmək niyyəti daha da böyüyür.

Prezident İlham Əliyev: “*Minsk qrupu Qarabağ münaqişəsi ilə bağlı olan məsələləri həll etmək üçün yaradılmışdır. Əgər Ermənistan hökuməti bəyan etdikləri kimi münaqişənin bitdiyini və Qarabağın Azərbaycanın bir hissəsi olduğunu hesab edirsə, Minsk qrupunun hüquqi olaraq fəaliyyəti üçün heç bir səbəb yoxdur. Qrup de-fakto olaraq fəaliyyət göstərmir, lakin rəsmi olaraq Minsk qrupunun buraxılması üçün Azərbaycanla birlikdə birgə müraciəti imzalamaqdan imtina etmək Ermənistamın öz vaxtını gözləməsinə işarə edir.*

*Ola bilsin, onlar bəzi dəyişiklikləri, onlara üstünlüklər verəcək müəyyən beynəlxalq vəziyyəti gözləyirlər*" [Redaktor.az, 2025].

Bakının töhfə verdiyi digər vacib istiqamət türk dünyasının güclənməsidir. Qlobal düzəndə baş verən ciddi dəyişikliklər fonunda bu proses əsla və əsla ləngiməməlidir. Əksinə, hazırda bir çox beynəlxalq və regional təşkilatların yaşadığı böhran, etnik, dil və mədəniyyət baxımından oxşar kriteriyalara sahib Türk Dövlətləri Təşkilatının qlobal aktora çevrilməsi üçün yeni fürsətlər yaradır. Avropa İttifaqı və NATO-nun üzləşdiyi real problemlərə nəzərən Türk Dövlətləri Təşkilatının nəhəng Avrasiya coğrafiyasında böhranla üzləşməyən struktur kimi təqdimatı daha asan olacaq.

Prezident İlham Əliyev: "*Əgər Avropa İttifaqına baxsanız, tamamilə fərqli dəyərləri olan ölkələri görəcəksiniz. Həmin ölkələrin xalqları bir-birindən tam şəkildə fərqlənir. Əgər Cənubu və Şimalı götürsək və bəzi ölkələrdə siyasi hadisələrə baxsaq görərik ki, onlar bir-birindən tam fərqlənir. Hazırda biz Avropa İttifaqında dəyərlər, mədəniyyət, ənənələr, miqrantlar, tariflər və sairə məsələlərdə xeyli narazılıqlar görürük. Belə bir hal Türk Dövlətləri Təşkilatında varmı? Yox. Bizdə yoxdur. Bu, bizi unikal edir. Bəs onda nə çatışmır? Bizim güclü beynəlxalq fəaliyyətimiz. Bu, kifayət deyil və biz daha çox çıxış etməli, daha fəal olmalı və qlobal məsələlərdə öz sözümüzü deməliyik*" [Abbasova, 2025].

Türk Dövlətləri Təşkilatının həm rəsmi, həm də qeyri formal sammit görüşlərində Şimali Kipr Türk Cümhuriyyəti liderinin də iştirakı arzuolunandır. Prezidentin bununla bağlı ADA forumundakı sözləri Şimali Kiprlilər tərəfindən də məmnunluqla qarşılandı. Şimali Kipr Prezidenti, baş naziri və digər rəsmi şəxslər Prezident İlham Əliyevin mövqeyini əsl dost dəstəyi kimi dəyərləndirdilər.

Prezident İlham Əliyev: "Bizim əlaqələrimiz davam edir. Bilirsiniz ki, vətəndaş cəmiyyətinin, Azərbaycan hökumətinin, parlamentinin nümayəndələri Şimali Kipr Türk Respublikasına tez-tez səfərlər edir, Şimali Kiprdən Azərbaycana səfərlər həyata keçirilir. Yəni, biz hər zaman qardaşlarımızlayıq, siyasətimiz hər zaman çox aydındır. Şimali Kiprdə öz dövlətinə sahib olmağa layiq qardaşlarımıza necə kömək edə biləcəyimizdən başqa bir gündəmimiz yoxdur. Onlar tarix və əməlləri ilə buna layiqdirlər" [Medianews.az, 2025].

Xüsusi olaraq qeyd edək ki, beynəlxalq müstəvidə hələ də Kipr məsələsinə münasibətdə ikili yanaşma, ikili standart var. Həmin standartlar vaxtilə BMT-nin sabiq baş katibi Kofi Annanın təşəbbüsü ilə keçirilən referendum zamanı Kipr türklərinin birləşməyə hə, yunan kiprinin isə yox deməsi ilə özünü aydın göstərdi. Nəticədə Yunan Kipri Avropa İttifaqına üzv oldu. birləşməyə hə deyən Şimali Kipr isə Türkiyə kimi Avropa İttifaqından kənar qaldı.

Azərbaycan isə Şimali Kipr müstəqil ölkəyə çevrilənə qədər kiprli türklərin yanında olacağını açıq şəkildə rəsmən bəyan edir.

Prezident İlham Əliyevin çıxışından Türk dünyası ilə əlaqələrin Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri olduğu nəticəsinə gəlmək olar. Tarix, dil, mədəniyyət və ortaq mənəvi dəyərlər bu dövlətlər arasında həmrəyliyin möhkəmləndirilməsi, regional təhlükəsizlik və sosial-iqtisadi tərəqqinin təmin olunmasına mühüm töhfə verir [Süleymanlı, 2025]. Azərbaycan bu sahədə qarşılıqlı əməkdaşlığın inkişafı üçün müvafiq təşəbbüslər irəli sürməyə davam edir. Türk dünyası ölkələri arasında hərtərəfli əlaqələrin qurulması, eləcə də enerji, iqtisadiyyat və mədəniyyət sahələrində yeni imkanların yaradılması xüsusi əhəmiyyət kəsb edir. Dövlətimizin başçısı qeyd edib ki, Türk Dövlətləri Təşkilatının unikallığı onun etnik mənşəyə, ümumi köklərə, ənənələrə, ümumi dəyərlərə əsaslanmasıdır. Bu təşkilat Türk dünyasının siyasi və iqtisadi gücünü artıracaq, qarşılıqlı təcrübə mübadiləsi ilə tərəflər üçün faydalı nəticələr əldə edilməsinə şərait yaradacaqdır.

**3.Nəticə**

ADA Universitetində keçirilmiş VII Siyasi Forum Azərbaycan diplomatiyasının müasir beynəlxalq münasibətlər sistemində tutduğu strateji mövqeyi və onun çoxşaxəli xarakterini bir daha nümayiş etdirdi. Forumun əsas məğzi ondan ibarət idi ki, dəyişən beynəlxalq düzən yeni çağırışlar və imkanlar doğurur, bu reallıqlar isə adekvat cavab tələb edir. Prezident İlham Əliyevin çıxışında vurğuladığı tezislər Azərbaycanın həm regional, həm də qlobal səviyyədə oynadığı rolu konkret fakt və arqumentlərlə əsaslandırmışdır.

Birincisi, Prezidentin nitqində Azərbaycanın beynəlxalq təşəbbüslərinin və qlobal proseslərdə fəal iştirakının konturları aydın şəkildə göstərilmişdir. Azərbaycanın müxtəlif beynəlxalq platformalarda ədalət və obyektivlik prinsipini müdafiə etməsi, Qoşulmama Hərəkatına sədrliyi dövründə ortaya qoyduğu təşəbbüslər və Afrika dövlətləri ilə qurduğu əməkdaşlıq nümunələri bunun bariz göstəricisidir. Bu yanaşma ölkəmizin beynəlxalq arenada yalnız regional yox, həm də qlobal aktor kimi mövqeyini gücləndirir [United Nations, 2022].

İkincisi, forumda Cənubi Qafqaz regionu ilə bağlı səsləndirilən fikirlər xüsusi əhəmiyyət daşıyır. Prezident İlham Əliyev Ermənistanla sülh sazişinin imzalanmasının vacibliyini vurğulayaraq bölgədə uzunmüddətli sabitliyin və davamlı inkişafın yalnız bu halda mümkün ola biləcəyini qeyd etmişdir. Bu yanaşma Azərbaycanın sülh, əməkdaşlıq və inteqrasiya modelinə sadiqliyinin göstəricisi olmaqla yanaşı, qlobal güclərin də diqqətini cəlb etmişdir. Ermənistanın destruktiv siyasətinə baxmayaraq, Azərbaycan etimadın artırılması üçün kiçik addımlar atmağa hazır olduğunu bəyan etməklə konstruktiv mövqeyini bir daha nümayiş etdirmişdir [Həsənov,2025, s.45-62].

Üçüncüsü, Prezidentin çıxışında Türk dünyasının birliyi və Türk Dövlətləri Təşkilatının perspektivləri ilə bağlı səsləndirilən tezislər yeni strateji xətt kimi qiymətləndirilə bilər. Tarixi, mədəni və mənəvi dəyərlərə əsaslanan inteqrasiya regional sabitlik və sosial-iqtisadi tərəqqinin təmin olunması üçün mühüm platforma yaradır. Azərbaycanın bu prosesdə oynadığı rol isə ölkənin yalnız region daxilində deyil, həm də Avrasiya məkanında strateji güc mərkəzinə çevrildiyini göstərir.

Dördüncüsü, enerji və nəqliyyat layihələri ilə bağlı təhlil göstərir ki, Azərbaycan coğrafi mövqeyindən səmərəli istifadə edərək Avropa, Mərkəzi Asiya və Yaxın Şərq arasında mühüm körpü rolunu oynayır. Bu, ölkəmizin beynəlxalq əməkdaşlıqda strateji tərəfdaşlıq statusunu möhkəmləndirməklə yanaşı, qlobal enerji təhlükəsizliyinə verdiyi töhfələrin miqyasını da genişləndirir.

Nəhayət, Prezident İlham Əliyevin forumdakı çıxışı yalnız cari reallıqları deyil, həm də gələcək tendensiyaları müəyyən edən proqram xarakterli bir sənəd kimi çıxış edir. Burada səsləndirilən fikirlər Azərbaycanın diplomatik fəaliyyətinin əsas hədəflərini, regionda sülh və sabitlik təşəbbüslərini, Türk dünyası ilə əməkdaşlıq perspektivlərini və qlobal siyasətdə artan rolunu əhatə edir. Forumun nəticələri təsdiq edir ki, Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində müstəqil, praqmatik və çevik siyasət yürüdərək həm regionun, həm də qlobal təhlükəsizliyin formalaşmasına mühüm töhfə verir.

Beləliklə, "Yeni dünya nizamına doğru" forumu Azərbaycanın dövlətçilik maraqlarının qorunması ilə yanaşı, beynəlxalq ictimaiyyətin diqqətini strateji məsələlərə yönəltmək baxımından əhəmiyyətli hadisə olmuşdur. Prezident İlham Əliyevin səsləndirdiyi ideyalar Azərbaycanın gələcəkdə də beynəlxalq əməkdaşlığın və qlobal siyasi dialoqun mühüm təşəbbüskarı olacağını göstərmişdir.

## 4.ƏDƏBİYYAT


1. Abbasova, A. (2025, April 17). Aynurə Abbasova: Beynəlxalq münasibətlərə dinamika gətirən forum. *AIA.* Alınıb: https://aia.az/104363-aynure-abbasova-beynelxalq-munasibetlere-dinamika-getiren-forum.html
2. Hüseynli, Ə. (2025, April 11). Azərbaycan reallıqları yeni dünya nizamı fonunda. *İki Sahil.* Alınıb: https://ikisahil.az/post/582805-azerbaycan-realliqlari-yeni-dunya-nizami-fonunda
3. Həsənov, A. (2023). Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemində diplomatik strategiyası. *Azərbaycan Beynəlxalq Münasibətlər Jurnalı, 29*(2), 45–62.
4. Məmmədov, R. (2025, April 13). Həftə verlişi [Video]. *YouTube.* Retrieved from https://www.youtube.com/live/cztBj7emoyw?si=bxa0h4_6bHdYOKnR

5. Medianews.az. (2025, April 16). Avropa Azərbaycana qoyduğu sərmayəni kəsə bilər? - Kipr məsələsi. *Medianews.az.* Alınıb: https://medianews.az/az/2025/04/16/avropa-azerbaycana-qoydugu-sermayeni-kese-biler-kipr-meselesi
6. Prezident.az. (2025, April 9). ADA Universitetində İlham Əliyevin iştirakı ilə "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forum keçirilib. *Prezident.az.* Alınıb: https://president.az/az/articles/view/68514
7. Redaktor.az. (2025, April 10). ADA Universitetində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forum keçirilib. *Redaktor.az.* Alınıb: https://redaktor.az/news/politics/276123-prezidentin-dunenki-forumdaki-cixisinin
8. Süleymanlı, M. (2025, April 11). Azərbaycan dəyişən dünya nizamında güclü mövqeləri ilə fərqlənir. *Azerbaijan News.* Alınıb: https://azerbaijan-news.az/az/posts/detail/azerbaycan-deyisen-dunya-nizaminda-guclu-movqeleri-ile-ferqlenir-1744378437/357083
9. Todaypress. (2025, April 10). Prezident İlham Əliyevin iştirakı ilə "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forum keçirildi. *Todaypress.* Alınıb: https://todaypress.az/az/xarici-siyaset/prezident-ilham-eliyevin-istiraki-ile-yeni-dunya-nizamina-dogru-movzusunda-beynelxalq-forum-kecirildi-i-hisse-54678
10. United Nations. (2022). *Non-Aligned Movement and multilateral diplomacy: Azerbaijan’s chairmanship experience.* UN Publications. Retrieved from https://www.un.org

## REFERENCES

1. Abbasova, A. (2025, April 17). Aynura Abbasova: The forum that brings dynamics to international relations. *AIA.* Retrieved from https://aia.az/104363-aynure-abbasova-beynelxalq-munasibetlere-dinamika-getiren-forum.html (in Azerbaijani)
2. Huseynli, A. (2025, April 11). Azerbaijan’s realities in the context of the new world order. *Iki Sahil.* Retrieved from https://ikisahil.az/post/582805-azerbaycan-realliqlari-yeni-dunya-nizami-fonunda (in Azerbaijani)
3. Hasanov, A. (2023). Diplomatic strategy of Azerbaijan in the modern international relations system. *Azerbaijan Journal of International Relations, 29*(2), 45–62. (in Azerbaijani)
4. Mammadov, R. (2025, April 13). Weekly program [Video]. *YouTube.* Retrieved from https://www.youtube.com/live/cztBj7emoyw?si=bxa0h4_6bHdYOKnR (in Azerbaijani)

**5.** Medianews.az. (2025, April 16). Can Europe cut off its investment in Azerbaijan? – The Cyprus issue. *Medianews.az.* Retrieved from https://medianews.az/az/2025/04/16/avropa-azerbaycana-qoydugu-sermayeni-kese-biler-kipr-meselesi (in Azerbaijani)

**6.** Prezident.az. (2025, April 9). An international forum on "Towards a new world order" was held at ADA University with the participation of Ilham Aliyev. *Prezident.az.* Retrieved from https://president.az/az/articles/view/68514 (in Azerbaijani)

**7.** Redaktor.az. (2025, April 10). An international forum on "Towards a new world order" was held at ADA University with the participation of the President of the Republic of Azerbaijan, Ilham Aliyev. *Redaktor.az.* Retrieved from https://redaktor.az/news/politics/276123-prezidentin-dunenki-forumdaki-cixisinin (in Azerbaijani)

**8.** Suleymanli, M. (2025, April 11). Azerbaijan stands out with its strong position in the changing world order. *Azerbaijan News.* Retrieved from https://azerbaijan-news.az/az/posts/detail/azerbaycan-deyisen-dunya-nizaminda-guclu-movqeleri-ile-ferqlenir-1744378437/357083 (in Azerbaijani)

**9.** Todaypress. (2025, April 10). An international forum on "Towards a new world order" was held with the participation of President Ilham Aliyev. *Todaypress.* Retrieved from https://todaypress.az/az/xarici-siyaset/prezident-ilham-eliyevin-istiraki-ile-yeni-dunya-nizamina-dogru-movzusunda-beynelxalq-forum-kecirildi-i-hisse-54678 (in Azerbaijani)

**10.** United Nations. (2022). *Non-Aligned Movement and multilateral diplomacy: Azerbaijan's chairmanship experience.* UN Publications. Retrieved from https://www.un.org (in English)